Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 285

# QƏRAR

Bakı şəhəri, 27 iyul 2016-cı il

## "Güzəştlərin həcmi və tətbiqi Qaydasının, Malların (işlərin və xidmətlərin) qiymətlərində dəyişikliklərin satınalma müqaviləsinə təsirinin hesablanması üsulunun təsdiq edilməsi və bölünən hissələrin məbləğinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 28 oktyabr tarixli 165 nömrəli qərarında dəyişikliklər edilməsi barədə

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 19 yanvar tarixli 105-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 1783 nömrəli Sərəncamının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Güzəştlərin həcmi və tətbiqi Qaydasının, Malların (işlərin və xidmətlərin) qiymətlərində dəyişikliklərin satınalma müqaviləsinə təsirinin hesablanması üsulunun təsdiq edilməsi və bölünən hissələrin məbləğinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 28 oktyabr tarixli 165 nömrəli qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, N10, maddə 648 ) aşağıdakı dəyişikliklər edilsin:

1. Adından "həcmi və" sözləri çıxarılsın.

2. 1-ci hissə aşağıdakı redaksiyada verilsin:

"1. "Güzəştlərin tətbiqi Qaydası" təsdiq edilsin (əlavə olunur).

***Yaqub EYYUBOV,***
***Azərbaycan Respublikası***
***Baş nazirinin birinci müavini***

*Qərara edilmiş əlavənin tam mətni ilə www.azerbaijan-news.az və cabmin.gov.az saytlarında tanış ola bilərsiniz.*